**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində**

# ANLAŞMA MEMORANDUMU

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq),

Azərbaycan Respublikası və Serbiya Respublikası arasında mövcud əməkdaşlıq potensialına əsaslanaraq,

iki ölkə arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək,

bu Anlaşma Memorandumunun məqsədinin ümumi maraq kəsb edən sahələrdə uğurlu, faydalı və ikitərəfli əlaqələrin qurulmasına dair qarşılıqlı niyyətə əsaslandığını vurğulayaraq,

Tərəflərin ən qabaqcıl milli təcrübəsini paylaşmaqla, qarşılıqlı faydalı və ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün öz səylərini birləşdirmək əzmini təsdiqləyərək,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər öz səlahiyyətləri çərçivəsində və dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı əsas sahələrdə birgə təşəbbüslər həyata keçirərək əməkdaşlıq edirlər:

1. əmək, məşğulluq və sosial müdafiə sahələrində qanunvericiliyin təkmilləşdirilməsi;

2. sağlam və təhlükəsiz əmək şəraitini təmin etmək məqsədilə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinin vacibliyinə dair kampaniyaların aparılması; istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən sığorta, əməyin gigiyenası və təhlükəsizliyi sahəsində sosial dialoq, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri üzrə statistikanın aparılması və əməyin gigiyenasının və təhlükəsizliyinin təşviqi;

3. peşə risklərinin qiymətləndirilməsində əməyin mühafizəsi laboratoriyasının imkanlarından istifadə olunması;

4. işsiz, işaxtaran şəxslər və sosial baxımdan həssas əhali qruplarının məşğulluq imkanlarını genişləndirilməsinə, o cümlədən gənclərin məşğulluğunun artırılmasına yönəldilmiş aktiv əmək bazarı siyasətlərinin hazırlanması;

5. əmək bazarının tələbatlarına uyğun işsiz və işaxtaran şəxslər üçün peşə hazırlığı;

6. işəgötürənlər tərəfindən əməkçi miqrantların hüquqlarının təmin edilməsinə nəzarət;

7. işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, peşə və kvalifikasiya standartlarının hazırlanması və tətbiqi;

8. əlilliyi olan şəxslərin sosial və məşğulluq problemlərinin həlli ilə əlaqədar məsələlər, əlilliyin qiymətləndirilməsi sistemi, əlilliyi olan şəxslər üçün xüsusi peşə hazırlığı və peşə yönümü proqramlarının hazırlanması, tətbiqi və reabilitasiyanın təşkili də daxil olmaqla əlillik siyasətinin təkmilləşdirilməsi;

9. ölkə üzrə sosial baxımdan həssas əhali qrupları üçün sosial xidmətlərin təşkili və şəbəkəsinin genişləndirilməsi, fiziki və hüquqi şəxslər tərəfindən sosial xidmətlərin göstərilməsi;

10. sosial müdafiə sahəsində tədqiqat və peşəkar işin təkmilləşdirilməsi;

11. sosial müdafiə xidmətlərinin keyfiyyətinin artırılması;

12. sosial müdafiə üzrə işçilərin peşəkar potensialının gücləndirilməsi, peşəkar işin yeni məzmunu və proqramlarının həyata keçirilməsi üçün müəssisələrdə peşəkar kadrların təlimləndirilməsi və ixtisaslaşması, o cümlədən peşə və kvalifikasiya standartlarının, prosedurların, protokolların və normaların hazırlanması;

13. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdikləri istənilən digər sahə.

**Maddə 2**

Tərəflər aşağıdakı əməkdaşlıq formaları üzrə razılığa gəlir:

1. Tərəflərin fəaliyyət sahələrinə aid olan qanunvericilik və aidiyyəti normativ sənədlərin, informasiya-analitik materialların və tədqiqatların nəticələrinin mübadiləsi;

2. rəhbərlik və mütəxəssis səviyyəsində səfərlərin təşkili;

3. beynəlxalq təşkilatların iştirakı ilə proqram və layihələrin həyata keçirilməsi;

4. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirdikləri əməkdaşlığın istənilən digər forması.

**Maddə 3**

Hər bir Tərəf bu Anlaşma Memorandumunun həyata keçirilməsi üçün xərclərini öz üzərinə götürür.

**Maddə 4**

Bu Anlaşma Memorandumunun icrasının əlaqələndirilməsi və icrasına nəzarət üzrə Tərəflərin cavabdeh idarələri aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən - Beynəlxalq əlaqələr şöbəsi;

2. Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi tərəfindən - Beynəlxalq əməkdaşlıq, Avropaya inteqrasiya və layihələr şöbəsi.

**Maddə 5**

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı yazılı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan və 8-ci maddəsi ilə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən dəyişikliklər edilə bilər.

**Maddə 6**

Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin dövlətlərinin tərəf olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

**Maddə 7**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı bir mübahisə Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 8**

1. Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq prosedurların yerinə yetirilməsini təsdiq edən Azərbaycan tərəfinin diplomatik kanallar vasitəsilə göndərdiyi yazılı bildirişin alındığı tarixdə qüvvəyə minir.

2. Bu Anlaşma Memorandumu beş (5) il müddətinə bağlanılır və Tərəflərdən biri onun müddətinin bitməsinə ən azı altı (6) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti beş (5) illik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində, 2021-ci il 6 iyul tarixində, Azərbaycan, serb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılıqları yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edir.

**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyi adından**

**Sahil BABAYEV**
**nazir**

**Serbiya Respublikasının**
**Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər**
**Nazirliyi adından**

**Prof. Dr.Dariya Kisiç TEPAVÇEVİÇ**
**nazir**